# Faciə də tarixdir, tarix isə unudulmur



***Ermənistan müxtəlif dövrlərdə qanunsuz yollarla Azərbaycandan min hektarlarla ərazi qəsb etmişdir. Bu, Ermənistana və dünya erməniliyinə yarınan Moskvanın əli ilə qismət olmuşdur. Sərhədlərini bu şəkildə genişləndirən Ermənistan Qorbaçov dövründə daha ciddi siyasi təxribatlara meyilləndi. Aqambekyanın Fransanın "Humanite" qəzetinə müsahibəsi ilə açılan siyasi riyakarlıq müxtəlif üsullarla və vasitələrlə genişləndirildi. Bu iddia elan edilməmiş müharibəyə səbəb oldu. Həmin müharibənin ilk şəhidləri isə Əskəranda azərbaycanlılar – Əli ilə Bəxtiyar oldu. İki gəncin şəhidliyi xalqımızın torpaq uğrunda döyüşlərinin başlanğıcı oldu. Azərbaycanda milli azadlıq hərəkatını söndürməyi bacarmayan Moskva Azərbaycana qarşı Ermənistan amilindən istifadə etdi və Birinci Qarabağ müharibəsi başladı...***

Ermənilər müxtəlif vaxtlarda Azərbaycanın sərhədləri daxilində silsilə təxribatlar törədir, kəndləri artilleriya atəşinə tutur, hücumlar edir, evləri yandırır, dinc azərbaycanlıları vəhşicəsinə qətlə yetirir, əsir aparırdılar. Azərbaycan Ordusu hələ tam formalaşmamışdı, respublikada hakimiyyət boşluğu vardı, qarşıdurmalar birliyə, monolitliyə imkan vermirdi.

Birinci Qarabağ müharibəsində düşmən Qazağın Bağanıs Ağrım kəndində (24 mart 1990-cı il) belə bir faciə törətdi. Bu faciədə 10 nəfər öldürüldü. Meşəli kəndində (23 dekabr 1991-ci il) 8-i qadın, 3-ü uşaq olmaqla, 28 nəfər qətlə yetirildi, Qaradağlı faciəsində isə (14 fevral 1992-ci il) 102 nəfər vəhşicəsinə öldürüldü, 108 nəfər əsir düşdü. Azərbaycanın üzləşdiyi bu faciələrə görə beynəlxalq təşkilatlar da, dünyanın iri dövlətləri də ciddi münasibət bildirmədilər. İşğalçı dövlət cəzasızlığı sonrakı hərbi fəaliyyətinə vasitə bildi. Havadarlarından həm siyasi, həm də hərbi dəstək alan Ermənistan Azərbaycanın dövlət sərhədləri daxilində təxribatlar, qırğınlar törətməkdə davam etdi. Dövlət müstəqilliyi yenicə bərpa edilmiş Azərbaycanda dövlət idarəçiliyində yol verilən ciddi nöqsanlar, əsassız qarşıdurmalar düşmənin işğalçılıq niyyətinə şərait yaradırdı. O vaxtlarda Xocalıya şəhər statusu verilmişdi. Bu səbəbdən burda əhalinin sayının xeyli artması düşmənin diqqətini çəkibmiş...

Düşmən dislokasiya yeri Xankəndi olan sovetlərdən qalma 366-cı motoatıcı alayın gücündən fəal şəkildə bəhrələnirdi. Bu alay müəyyən mənada Ermənistana xidmət edirdi...

Erməni hərbi birləşmələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə 366-cı alayın bilavasitə iştirakından yararlanaraq, ağır texnikadan və artilleriya dəstəyindən istifadə edərək Xocalı şəhərinə hücuma keçdilər. Ərazi özünümüdafiə taborları, əhali bu miqyasda hücumun qarşısını ala bilməyəcəkdi. Əhali ev-eşiyindən çıxıb uzaqlaşana kimi döyüşdülər. Sonralar Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş Əlif Hacıyevin,Tofiq Hüseynovun və başqalarının rəşadətli döyüşü camaatın nisbətən uzaqlaşmasına, qırğının nisbətən az olmasına şərait yaratdı. Xüsusi tapşırıq almış qüvvələr – ermənilər də, 366-cı alayın hücumda iştirak edən hərbi qulluqçuları da şəhərdən uzaqlaşanları ölümdən, əsirlikdən qaçanları təqib edir, onlara çataraq, güllələyir, əsir götürürdülər. Qışın soyuğunda, şaxtasında çöllərə düşən xocalılar zülmlə Qarqar çayı boyu, Ağdam istiqamətinə yıxıla-yıxıla, əzilə-əzilə qaçırdı.

Həmin gecə ermənilər Xocalını odlamışdı,Xocalı özü boyda ocağa dönmüşdü. Şaxta-sazaq od söndürər, amma Xocalı özü boyda od saçırdı. Hamı harayla, naləylə, fəryadla oddan qaçırdı. Bilmirdilər ki, oddan qaçıb daha dəhşətli oda düşəcəklər. Bu haraylar, nalələr, fəryadlar Xocalıdan uzaqlarda eşidilmirdi...

Dünya müharibələr tarixi belə qəddarlıq, belə vəhşilik görməmişdi. Bunu vəhşiliyin, qəddarlığın ad daşıyıcısı olan, insanlığa üz qarası olan bəşəriliyə düşmən kəsilən ermənilik törədirdi. Bu vəhşilik tarixdə min illərlə nifrətlə xatırlanacaq...

Böyük tarixi şəxsiyyət Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıdandan sonra əsrin faciəsinin soyqrımı aktı olduğu dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların diqqətinə çatdırıldı. Ümummilli lider Heydər Əliyevin sərancamı ilə 26 fevral "Xocalı Soyqırımı Günü" elan edildi.

Ümummilli lider deyib: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Xocalı faicəsi haqqında deyib: "Xocalı faciəsi iki yüz ildən çox müddətdə erməni millətçilərinin xalqımıza qarşı apardığı qanlı səhifəsidir".

Birinci vitse-prezident Mehriban xanım Əliyeva Xocalı faciəsinin tariximizin bir səhifəsi kimi yaşanılacağını xatırladaraq deyib: "Xocalı soyqırımı kimi faciələr unudula bilməz. Günahsız insanların vəhşicəsinə qətlə yetirilməsinə heç nə ilə haqq qazandırmaq olmaz! Biz o dəhşətli hadisələr haqqında həqiqətləri təhrif olunması cəhdlərindən hər zaman qoruyacağıq".

Bu faciə erməniliyin mahiyyətini göstərdi: Ermənistan Azərbaycandan ərazi iddiası ilə kifayətlənmir, həm də xalqımızın məhvinə çalışırdı. Ulu öndər onu da deyibdir ki, Xocalı soyqırımı bəşər tarixinə öz vəhşiliyinə və müqayisəyəgəlməz cəza üsullarına görə ən qanlı kütləvi terror hadisəsidir. Bu fikir beynəlxalq təşkilatların hadisəyə gerçək münasibət bildirməsinə istiqamətləndirirdi.

Heydər Əliyev Fondunun birinci vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlayan və dünyanın onlarca dövlətinin diqqətini çəkən "Xocalıya ədalət!" kampaniyası təkcə faciənin tanıdılması missiyası ilə məhdudlaşmır, bu kampaniya faktların zənginləşməsində də, dəqiqləşməsində də tarixi missiya yerinə yetirir...

Xocalı faciəsinin dəhşətlərini görən 366-cı alayın xüsusi şöbəsinin rəisi polkovnik Vladimir Savelyev Rusiya Federasiyası Müdafiə Nazirliyinin Baş Qərargahı yanında Baş Kəşfiyyat İdarəsinə, BMT və Avropa Şurasına ünvanlandığı hesabatında Azərbaycan xalqına qarşı soyqırımı cinayətinin törədildiyini etiraf edir:

"Məndən on addımlıqda güllə yarası almış səkkiz-doqquz yaşında qızcığaza yardım edə bilmədim. Allahın məni cəzalandıracağı o gündən qorxuram. Lənətlənmiş günlər bir-birini əvəz edirdi".

Faciənin şahidi olan fransız jurnalisti Jan-İv Ginyet yazırdı: "Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm, lakin beş-altı yaşlı uşaqları, dinc əhalini qırmaqla ermənilər onları arxada qoydular".

1992-ci il martın 10-da Rusiya Federasiyasının Prezidenti B.Yeltsinin ünvanına Daxili İşlər Naziri Yerin məktub göndərib, Xocalı hadisəsi ilə bağlı görüşmək istədiyini bildirib, Məktuba Xocalı faciəsi ilə bağlı video-kasset də əlavə edib. General Yerin B.Yeltsinə yazırdı: "Xocalıda uşaqları, qadınları və qocaları güllələmişlər. Öldürülənlərin başlarının dərisi soyulmuşdur".

Xatırlamalıyıq ki, o gecə öldürülənlərin əksəriyyəti 2 yaşından 15 yaşına qədər uşaqlar olub...

ASALA erməni terror təşkilatının fəallarından olan Vazgen Sislyan da Xocalıda azərbaycanlı uşaqları qətlə yetirənlərin şahidi olub. Yüzlərlə cəlladdan biri kimi onun da etirafı Xocalı soyqırımının necə baş verdiyini göstərən faktdır. O da qeyd edilməlidir ki, Robert Koçaryan Xocalı soyqırımının fəallarından olub, Ermənistanın prezidenti seçiləndən sonra Sislyanı Qarabağ müharibəsinin qəhrəmanı elan edib. Bunlar gələcəkdə beynəlxalq məhkəmənin diqqətini çəkəcək, hər bir fakt sənədləşdiriləcək.

Xocalı faciəsinin iştirakçısı Davud Xeyriyan etiraf edirdi: "...Martın 2-də "Qafqan" erməni qrupu 100-dən artıq türk meyitini yığıb Xocalıdan təxminən bir kilometr aralıdakı qəbiristanlıqda yandırdı. Axırıncı maşında mən alnından və əlindən yaralanmış on yaşlı qız uşağını gördüm. Sifəti göyərmiş bu qız uşağı aclığa, soyuğa və aldığı yaralara baxmayaraq, hələ də sağ idi. Sakitcə nəfəs alırdı. Ölümlə çarpışan balaca qızın baxışlarını unuda bilmirəm. Bir qədər sonra Tiqranyan deyilən əsgər hərəkətsiz qızı götürüb meyitlərin üstünə atdı. Sonra onları yandırdılar. Mənə elə gəlirdi ki, yanan meyitlərin arasından kimsə qışqırır, köməyə çağırırdı. Bundan sonra mən daha yeriyə bilmədim".

Bunlar Azərbaycana düşmən kəsilənlərin etirafıdır. Xaricdə dərc edilən mətbu orqanlar da oxucularına Xocalı faciəsi haqqında məqalələr təqdim edib: "Erməni əsgərləri yüzlərlə ailəni qırıb-çatıblar. Sağ qalanlar deyirlər ki, ermənilər 450-dən artıq azərbaycanlını güllələmişlər, onların da çoxu qadınlar və uşaqlardır. Yüzlərlə, bəlkə də minlərlə adam itkin düşmüşdür. Xocalıdan qaçan digər qadınlarla və uşaqlarla bir yerdə Ağdama gəlmiş Raziyə Aslanova deyir ki, onlara ardıarası kəsilmədən atəş açırdılar, insanları diri-diri yandırır, başlarının dərisini soyurdular. Onun dediyinə görə, əri, qayını və oğlu qətlə yetirilmiş, qızı isə itkin düşmüşdür". "Times" qəzetində dərc edilən bu informasiya da gerçəkliyə xidmətin təzahürüdür...

Xalqımız Bağanıs Ayrımın da, Meşəlinin də, Qaradağlının da, Ağdabanın da, Xocalının da ... qisasının alınmasını istəyirdi. Vətən müharibəsində Zəfər qazandıq. Bu Zəfər o faciələrin ağrı-acılarını yumşaltdı, təsəlli oldu...

Xocalı faciəsindən 30 il keçir. Belə faciələr unudulmayacaq, tariximizin bir səhifəsi kimi həmişə anılacaq. Anılacaq ki, yeniyetmələr, gənclər Vətəni daha böyük məhəbbətlə sevsinlər. Anılacaq ki, düşmən belə vəhşilikdən çəkinsin, Azərbaycanın dövlət sərhədlərinə yaxınlaşmağa cəsarət etməsin.

Xocalı faciəsi heç zaman unudulmayacaq.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***







***Xocalı qətliamından 30 il keçir. Lakin illər ötdükcə bu dəhşətli hadisə hər birimizin yaddaşına əbədi həkk olunur. Öz miqyasına görə tarixdə analoqu olmayan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri qəddarlıqda heç də faşistlərdən geri qalmadıqlarını bir daha təsdiqlədilər. Həmin gün erməni silahlı birləşmələri faşistlərdən də qəddar olduqlarını açıq şəkildə dünyaya nümayiş etdirdilər. 30 il keçməsinə baxmayaraq, faciənin acı nəticələrini unutmamalı, daim yadda saxlamalıyıq və gələcək nəsillər də erməni qəddarlığı barədə məlumatlandırılmalıdır.***

# Xocalı soyqırımı Azərbaycan tarixinin ən dəhşətli səhifələrindəndir

Erməni qəddarlığı haqqında həqiqətlərin dünyaya çatdırılması, dəhşətli faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Artıq Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərar və qətnamələrində də əksini tapıb. Dünyanın 15-dən çox ölkəsi parlament səviyyəsində, eləcə də ABŞ-ın 25-dən artıq ştatı, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyıb.

Hər il xalqımız Xocalı soyqırımını böyük kədər, qəm-qüssə ilə anır, şəhidlərimizin ruhuna dualar oxuyur. Bu il soyqırımının ildönümü ilk dəfədir ki, fərqli şəkildə anılır. Çünki 30 il əvvəl ermənilər tərəfindən işğal edilmiş torpaqlarımız azadlığa qovuşub. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu Ermənistanın işğalçılıq siyasətinə son qoydu. Düşməni işğal etdiyi ərazilərimizdən qovdu. 200 ildən artıq müddətdə xalqımıza qarşı düşmənçilik siyasəti yeridən qəddar Ermənistan ordusu darmadağın edildi. Xocalı soyqırımı qurbanlarının, həmçinin digər şəhidlərimizin qisası alındı.

2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun parlaq Zəfəri ilə başa çatdı. Azərbaycan Ordusunun qarşısında aciz qalan Ermənistanın siyasi və hərbi rəhbərliyi kapitulyasiya aktını imzalamağa məcbur oldu. Qarabağ Zəfəri milyonlarla insanın qəlbindəki ağrını azaltmaqla yanaşı, Xocalı soyqırımını törədən cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verəcəkləri inamını daha da artırdı. Möhtərəm Prezidentimizin qətiyyəti, ölkəmizin beynəlxalq aləmdə getdikcə artan reytinqi, mövqeyimizin möhkəmləndirilməsi və əlaqələrimizin daha da genişləndirilməsi də təsdiqləyir ki, o gün çox da uzaqda deyil.

Xocalı soyqırımının otuzuncu ildönümünün respublikamızın bütün ərazilərində anılması ilə əlaqədar dövlət başçımızın 28 yanvar 2022- ci il tarixli sərəncamında da qeyd edilir ki, bu faciə Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biridir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq, keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu. Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı.

Ulu öndər Heydər Əliyev Xocalı faciəsini soydaşlarımıza qarşı soyqırımı adlandırmışdır: "Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır – vəhşiliyin görünməmiş bir təzahürüdür".

Xocalı soyqırımı dünənin, bugünün işi deyildi. Ermənistanın uzun müddət "böyük Ermənistan" dövləti yaratmaq ideyasını reallaşdırmaq uğrunda apardığı qanlı mübarizənin dəhşətli nəticələrindən biridir. İki yüz ildən çox davam edən erməni düşmənçilik siyasəti nəticəsində ərazilərimiz zaman-zaman işğala məruz qalıb, soydaşlarımız vəhşicəsində qətlə yetirilib. Bu düşmənçilik hələ çar Rusiyası zamanı ermənilərin əzəli Azərbaycan torpağı Qarabağa köçürüldükləri vaxtdan başlayaraq bu günə qədər davam edir. Ermənilər məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişərək özününküləşdirməyə cəhd etmiş, münbit əraziləri ələ keçirməyə çalışmış, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmış, onlara qarşı qəddarlıq nümayiş etdirmişlər.

Rusiya inqilablarının yaratdığı şəraitdən sui-istifadə edərək, erməni qəsbkarları 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər. 1918-1920-ci illər isə xalqımızın yaddaşında erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə yadda qalmışdır. Həmin illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalmış, yaşadıqları yerlərdən qovulmuş, onlara işgəncələr verilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edilmişdir.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından qovulması sovet dövründə də davam etmişdir.1948-1953-cü illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq, Azərbaycanın Kür–Araz düzənliyində yerləşdirilmişdir. 1988-ci ildə daha 250 min azərbaycanlı erməni silahlı birləşmələri tərəfindən zor gücünə öz doğma ata-baba yurdundan qovulmuşdu. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "böyük Ermənistan" dövləti yaratmaq kimi cəfəng ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız soydaşımızın xüsusi amansızlıqla qətlə yetirilmələri, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir.

Həmin vaxt xarici havadarlarına və ermənipərəst qüvvələrə arxalanan ermənilər, eyni zamanda, dünyada baş alıb gedən özbaşınalıq və ikili standartlardan daha da həyasızlaşırdılar. Belə bir vaxtda erməni faşistləri dünyada analoqu olmayan Xocalı faciəsini törətdilər. Dünya birliyinin gözü qarşısında baş verən bu dəhşətli qətliam xüsusi qəddarlığı ilə seçilir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərini yerlə -yeksan etdi, dinc əhalini güllələbaran etdi, canlarını güclə qurtaranlar qışın soyuğunda, qarda, şaxtada dağlarda, meşələrdə gizləndi. Əksəriyyəti soyuqdan donaraq öldü. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmuş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmiş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur. Soyqırımı baş verən gecə 1275 nəfər dinc sakin girov götürülmüş və onlardan 150-nin taleyi indi də məlum deyil. Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı cinayətdir.

Xocalılar bu amansız soyqırımı günündə azərbaycanlıya xas olan mərdlik, igidlik nümayiş etdirmiş, özlərini əsl qəhrəman kimi apararaq erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə son nəfəslərinə qədər vuruşmuş, düşmən qarşısında əyilməmişlər.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etmişdir. Ulu öndərin 1998-ci ildə imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. O dövrdən başlayaraq, Azərbaycan hökuməti və dünya azərbaycanlıları erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu qətliamın soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərirlər.

Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə XX əsrin ən dəhşətli və qanlı faciələrindən biri olan Xocalı soyqırımının 20-ci ili böyük izdihamla qeyd olunmuşdur. Soyqırımı qurbanlarının xatirəsi paytaxtımızda 60 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü ilə yad edilmişdir. Bu yürüş dünyaynı lərzəyə saldı. Dünya birliyi bu ədalətsizlikılə – Xocalı faciəsi ilə daha yaxından tanış oldu. Ümumxalq yürüşündə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, dövlət və hökumət, eləcə də ictimaiyyət nümayəndələri öndə gedirdilər. Paytaxtın Azadlıq meydanından başlayan, 60 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Heydər Əliyev Fondunun təşkilatçılığı Azərbaycan həqiqətlərinin, Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür. Xocalı soyqırımının ildönümü ərəfəsində dünyanın müxtəlif ölkələrində keçirilmiş aksiyalara dəstək məqsədi ilə xüsusi hazırlanmış ekspozisiya və ingilis dilində bukletlər göndərilmişdir. Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri vasitəsilə ABŞ, Cənubi Afrika Respublikası, Koreya Respublikası, Belarus, Çexiya, Fransa, Gürcüstan, İndoneziya, İsveç, İngiltərə, İsrail, İordaniya, Kanada, Qətər, Qazaxıstan, Özbəkistan və Yaponiyada təqdim olunan 17 ekspozisiya və nəşrlərlə yanaşı, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya, İran, İspaniya, Macarıstan, Səudiyyə Ərəbistanı, Türkiyə və Türkmənistan ictimaiyyəti də Xocalıda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri qanlı cinayət və vandalizm aktları barədə geniş məlumat əldə etmişdir.

Xocalı faciəsi barədə dünya ictimaiyyətinə dolğun və geniş məlumatlar verilməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının fəaliyyəti də yüksək qiymətə layiqdir. Bu kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində mitinqlər, yürüşlər və tədbirlər təşkil olunmuşdur. Kampaniyanın əsas məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı ermənistanın növbəti təxribatlarına cavab verməklə yanaşı, əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı.

Vətən müharibəsinin gedişatında işğaıçı Ermənistan ordusu öz vəhşiliyini bir daha sübut etdi və beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı yenidən qəddarlıq, amansızlıq nümayiş etdirdi. Gəncəni, Bərdəni, Naftalanı. Tərtəri, Mingəçeviri, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alaraq, bir daha sübut etdi ki, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. Bütün bu vəhşiliklərə baxmayaraq, rəşadətli Azərbaycan Ordusu Ermənistana layiq olduğu yeri göstərdi və düşmən üzərində parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. Xocalıların, eləcə də, bütün şəhidlərimizin qisası alındı.

Azərbaycan xalqı heç vaxt Xocalı faciəsini unutmayacaq. Bu soyqırımına hüquqi-siyasi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər ədalət məhkəməsinə çəkilməlidirlər.

***Şahin İMANOV,***
***Xocalı rayon prokuroru,***
***ədliyyə müşaviri***